# İşğalçılar Azərbaycan torpaqlarından çıxmalıdırlar!

# Haqqın sözü və haqqın özü

## *Prezident İlham Əliyevin nitq, müsahibə və müraciətləri bu həqiqətləri dünyaya bəyan edir*

***Onun həqiqəti söyləyəcəyini, ədalətli danışacağını elə ilk cümləsindən, bəlkə salamlaşmasından da öyrənmək olar. Çünki ümumi işə, xalqın mənafeyinə bağlı olan kəsdə yüksək səmimiyyət də olur.***

***Mahatma QANDİ,***
***görkəmli ictimai-siyasi xadim***

Möhtərəm Prezidentimizə səs verib etimad göstərmiş milyonlarla azərbaycanlının fikrincə, İlham Əliyev həmsöhbətləri və müsahibləri ilə ünsiyyətdə olarkən haqq sözü dilə gətirir, beynəlxalq tribunalardan danışarkən Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırır və nəhayət, öz əməlləri və fəaliyyəti ilə haqqın özünü haqqı dananlara göstərir.

Bütün bunların nə dərəcədə həqiqət olduğunu sübut etməyə ehtiyac olmasa da, xatırlatmaq yerinə düşər ki, belə istəyə düşənlər tapılsa, onların dövlət başçımızın təkcə son iki ayda söylədikləri ilə tanış olmaları kifayətdir.

O ki qaldı, səmimiyyət məsələsinə, deyə bilərik ki, Azərbaycan xalqı dövlət başçımızın müxtəlif yarışlarda qalib gəlmiş idmançıları qəbul edərkən, uşaqların arasında olarkən, Şamaxıda Saray xalanın yeni tikilmiş evində çay içərkən, əlil arabasındakı şəhər sakininin yanında dayanıb şəkil çəkdirərkən, Novruz şənlikləri günü İçərişəhərdə bayram şirniyyatı yeyərkən, danışmağa çətinlik çəkən şəhid atasına su süzüb verərkən və bu qəbildən olan digər məqamlarda sadəliyini və səmimiyyətini dəfələrlə görmüşdür. Son iki aydakı müsahibə və müraciətlər nə qədər rəsmi və siyasi-diplomatik məzmunlu olsa da, dövlət başçımız yenə də səmimidir, yenə də sadə və ədalətlidir. Amma bu sadəliyin möhtəşəm bir qətiyyətin və mükəmməl iradənin üzərində dayandığı da reallıqdır.

Dövlət başçımız sentyabrın 27-də – düşmən təxribatlarının başlanmasından bir neçə saat sonra Azərbaycan xalqına ünvanladığı müraciətdə deyirdi: "Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi, məhz bu məqsədləri güdür"...

Fikrimizcə, Azərbaycan Prezidentinin "hazırda danışıqlar faktiki olaraq dayanıbdır" deməsi xalqa həqiqətin söylənilməsi – yeni səmimiyyət nümunəsi idi. Bu, həmin günlər idi ki, Ermənistan rəhbərliyi öz xalqını aldadaraq, danışıqların davam etdiyini söyləyirdi.

İndi isə başqa bir məqama– Azərbaycan Prezidentinin Ermənistan rəhbərliyinin yeddi şərtinə qarşı bir şərt irəli sürdüyü 4 oktyabr tarixli müraciətə diqqət yönəldək: "Bizə yeddi şərt irəli sürür. Sən kimsən ki, bizə şərt qoyasan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Mənim şərtim birdir – çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə.



Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz, əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik".

Təbii ki, öz xalqına və beynəlxalq ictimaiyyətə sayı bilinməz qədər yalanlar söyləmiş Nikol Paşinyan Azərbaycan tərəfinin bircə dənə olan şərtini yerinə yetirə bilməzdi və ona görə də başı əzildi. Azərbaycan əsgəri Paşinyanın quldurlarını öz torpaqlarımızdan "iti qovan kimi" qovur.

İndi müsahibələrə baxaq. Dövlət başçımız oktyabrın 14-də "Franse 24" telekanalına verdiyi müsahibədə israrla sübut edir ki, Ermənistan tərəfi danışıqlar prosesini pozmaq üçün mümkün olan və olmayan bütün addımları atmışdır: "Ermənistan tərəfi həmişə prosesi pozmağa və danışıqlar masasına yeni yanaşmaları tətbiq etməyə çalışırdı. Bunlar bizim tərəfimizdən və Minsk qrupunun həmsədrləri tərəfindən rədd edilmişdir... Ermənistanda yeni hökumət hakimiyyətə gələndən sonra son iki il ərzində fəaliyyətlərindən biri qondarma "Dağlıq Qarabağ respublikasının hökumətini" danışıqlar masasına cəlb etmək və beləliklə də danışıqların formatını dəyişmək idi. Çünki iyirmi ildən artıqdır ki, danışıqlar Minsk qrupu prosesi çərçivəsində Ermənistan və Azərbaycan arasında aparılır. Odur ki, qondarma "Dağlıq Qarabağ respublikası hökuməti" danışıqlara cəlb etmək səyləri formatı dəyişdirmək cəhdləri idi".

Yəni Azərbaycan Prezidenti ATƏT-in Minsk qrupunun həmsədrlərindən olan Fransanın televiziya tamaşaçılarına dedi ki, sizin müdafiə etdiyiniz Ermənistan sizin dövlətin təmsil olunduğu Minsk qrupunun qərarlarını ayaq altına atır.

Prezidentin oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına verdiyi müsahibə də bu baxımdan xüsusi önəm kəsb edir. Belə ki, Türkiyə Cümhuriyyətinin bu bölgədə sülhün və sabitliyin bərpasına cəhd etməsi bəzi Avropa ölkələrində qısqanclıqla qarşılanır. Dövlət başçımız Ermənistanın vay-şivəninə inanan qüvvələrə başa salır ki, burada mənfi çalar axtarmaq siyasi korafəhmlikdir: "Əslində, de-fakto Türkiyə artıq masadadır. Mən bunu söyləmişəm. Bu, reallıqdır. Bu gün Türkiyə digər bölgədə yerləşən ölkələrlə bu məsələni danışır, müzakirə edir. Siz də bilirsiniz, Rusiya və Türkiyə prezidentləri arasında telefon danışığı olub. Xarici İşlər nazirlərinin, Müdafiə nazirlərinin danışıqları olubdur. Eyni zamanda, iranlı həmkarları ilə Türkiyənin yüksək vəzifəli şəxslərinin əlaqələri olubdur, digər ölkələrlə. Ona görə Türkiyə de-fakto buradadır".

Prezident əminliklə söyləyir ki, münaqişənin başlandığı illərdə Türkiyə də həmsədr olsaydı, o zaman təbii ki, bu məsələ çoxdan həll olunardı: "Ona görə biz deyirik ki, Türkiyəsiz bu məsələ həll olunmaz. Mən demirəm ki, Minsk qrupu artıq tarixdə qalsın. Yox, qoy onlar da çalışsınlar. Halbuki, 30 il ərzində bir nəticəyə gəlmədilər. Amma Türkiyəni bu prosesdən kənarda saxlamaq həm düzgün deyil, həm də ki, mümkün deyil".

Dövlət başçımız oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə verdiyi videomüsahibədə də münaqişənin həllində maraqlı olan tərəflərə, məhz maraqlı mesajlar göndərib: Biz öz tərəfdaşlarımızla əlaqələr çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə sadiqik... Təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozdu. Danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı – yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra – iki hücum olub – həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkəranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə də, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi.

Nəhayət, oktyabrın 20-də xalqa müraciət edən Prezident, eyni zamanda, beynəlxalq ictimaiyyətə də deyirdi ki, biz Ermənistan rəhbərliyi kimi günahsız insanları hədəfə almırıq, bizim hədəfimizdə olanlar vəhşi xisləti yırtıcılardır: "Dağıdılmış kəndlərin, şəhərlərin vəziyyətinə baxmaq kifayətdir, hər kəs görsün ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. İşğal olunmuş və artıq azad edilmiş torpaqlarda bir dənə də salamat bina qalmayıb. Bütün binalar sökülüb, talan edilib, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz dağıdılıb, talan edilib, təhqir edilib. Onlar hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Onlar hesab edirdilər ki, bu torpaqları əbədi işğal altında saxlayacaqlar. Onlar bizim şəhərlərimizin adlarını dəyişdiriblər, rayonlarımızın sərhədlərini dəyişdiriblər, kəndlərimizin adlarını dəyişdiriblər, bizim torpaqlarımızı erməniləşdirmək istəyiblər, amma buna nail ola bilmədilər. Azərbaycan xalqının iradəsini qıra bilmədilər".

Bəli, ermənilər bizim iradəmizi qıra bilmədilər. Çünki hamıya, hər yerdə haqqı deyən, ədalətli danışan İlham Əliyev kimi Ali Baş Komandanımız və düşmənə haqqın harada olduğunu göstərən silahlı qüvvələrimiz vardır. Allah ordumuzu qorusun! Qarabağ Azərbaycandır!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***